# Azərbaycan-İtaliya münasibətləri Avropa İttifaqına nümunədir

**Azərbaycan regionun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmizin xarici siyasəti səmərəli daxili siyasətin davamıdır. Bu gün Azərbaycan xarici siyasətdə bütün ölkələrlə konstruktiv münasibətləri yalnız milli maraqlar çərçivəsində qurur. Dünyanın aparıcı dövlətlərindən olan İtaliyanın Azərbaycanla əlaqələrin inkişafına önəm verməsi Azərbaycanı tərəfdaş seçmək bacarığına əsaslanır. Bu gün Azərbaycan beynəlxalq birlik tərəfindən çox böyük rəğbətlə qarşılanır.**






Azərbaycanın Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşı olduğunu və bu ölkənin regionla reallaşdırdığı ticarətin 95 faizini Azərbaycanla aparması ölkəmizin yürütdüyü uğurlu xarici siyasətin təzahürüdür. Azərbaycan-İtaliya münasibətləri uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu dövlətlər arasında ali və yüksəksəviyyəli səfərlərin həyata keçirilməsi də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına işgüzar səfəri çərçivəsində keçirilən "dəyirmi masa"da "MATANAT A" Şirkətlər Qrupu ilə İtaliyanın "Comec" şirkəti arasında dünyada son innovasiyaya uyğun və unikal ixtira əsasında hazırlanmış zavodun alınması ilə əlaqədar ikitərəfli memorandum imzalandı.

İmzalanmış memorandum əsasında bu il alışı həyata keçiriləcək unikal zavodun fəaliyyətinin ilk dəfə olaraq ölkəmizdə tətbiq olunması şirkətlər qrupunun növbəti uğurlarından biridir. Bütün bu nailiyyətlər onu deməyə əsas verir ki, Azərbaycanda sahibkarların etibarlı himayədarı olan Prezident İlham Əliyevin reallaşdırdığı məqsədyönlü siyasət hesabına özəl sektor yeni və qlobal inkişafına qədəm qoyur.

Bu gün ölkəmiz iqtisadiyyat sahəsində inkişafının dünyanın bir çox qabaqcıl ölkəsinə nümunə ola biləcək Azərbaycan modeli ilə özünə getdikcə daha çox diqqət çəkməkdədir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük əməyi sayəsində yürüdülən xarici siyasət xalqımızın mənafeyini, müstəqil dövlətimizin inkişafını və perspektivlərini müəyyənləşdirir.

***Elxan BƏŞİROV,***
***"MATANAT A" Şirkətlər Qrupunun***
***Müşahidə Şurasının sədri***

Azərbaycan. - 2024.- 10 sentyabr (№196).- S.6.